Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# İnnovasiyalara və kommunikasiyalara dövlət qayğısı yetərlidir - ancaq hələ də internet problemi var...

## 13. İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

**Müasir informasiya texnologiyalarının ən səmərəli vasitələrindən biri informasiya sisteminin qurulmasıdır. Azərbaycan Respublikasında həyata keçirilən islahatlar və irimiqyaslı layihələr sayəsində ictimai həyatın iqtisadi və sosial-siyasi sahələrində dinamik inkişafa nail olub. Dövrümüzdə informasiya-kommunikasiya texnologiyalarının təsir dairəsi genişlənərək dövlət strukturlarını, vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə cəmiyyəti əhatə edib.**



Elə buna görə də informasiya texnologiyalarının daha geniş yayıldığı ölkələr dünyanın ən qabaqcıl cəmiyyətləri sayılır. İndi cəmiyyətimizi informasiya-kommunikasiya texnologiyaları sahəsində mühüm yenilik olan internetsiz təsəvvür etmək qeyri-mümkündür. Azərbaycan dövləti internetin cəmiyyətin və insanların həyatının ayrılmaz hissəsi olduğunu nəzərə alaraq indiyə qədər bu istiqamətdə bir sıra addımlar atıb. 2003-cü ildə ulu öndər Heydər Əliyevin təsdiq etdiyi İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya, Prezident İlham Əliyevin 21 avqust 2004-cü ildə təsdiq etdiyi "2005-2007-ci illərdə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Dövlət Proqramı", həmçinin 22 oktyabr 2005-ci ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası və "İnformasiya cəmiyyətinin inkişafına dair qəbul edilən bu sənədlər Azərbaycan dövlətinin İKT-nin inkişafına diqqətlə yanaşdığını göstərir.

**Problemin kökündən həlli üçün aidiyyəti qurumlar hərəkətə keçməlidir**

Bütün bunlara baxmayaraq, ölkədə internetin verilmədində və sürətində ptoblemlər hiss edilməkdədir.

Ekspertlər bunun obyektiv səbəblərinin olduğunu deyillər. Hesab edilir ki, problemin kökündən həlli üçün aidiyyatı qurumlar hərəkətə keçməlidir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu sahədə bir monitorinq aparmalıdır ki, internet bazarında vəziyyət necədir. Yaxşi olar ki, bu işə İqtisadiyyat Nazirliyinin Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti də qoşulsun. Bu iki qurum birlikdə bir monitorinq aparsın ki, bu saat Azərbaycan internet bazarında vəziyyət necədir və nə üçün son dövrlərdə keyfiyyət pisləşib. Bunu edəndən sonra səbəbi dəqiq bilmək olar.

**Bundan sonra da məsələni dövlət və ya özəl provayderlərin üzərinə buraxsaq…**

İKT üzrə ekspert Osman Gündüzün fikirincə, real vəziyyət bundan ibarətdir ki, provayderlər mövcud nəzarətsiz vəziyyətdən istifadə edərək daha çox qazanmaq istəyirlər və faktiki olaraq istifadəçiləri aldatmaqla məşğuldurlar. "Faktiki olaraq məlum provayderler az trafik alır, amma çox adama satır. Provayderin aldığı həcm dəyişmirsə, onlar 2000 yerə necə internet sata bilər? Deməli bunlar yetərincə trafik internet sürəti almayıb çoxlu sayda satıblar və belə olanda da internetin sürətində şübhəsiz ki, problem yaranır. Yəni istifadəçilərin "çəkidə aldadılması" həm provayderlərin çox pul qazanmaq ehtirasından baş verir, həm də ola bilər ki infrastruktur köhnəlib. Bu səbəbdən son nöqtəyə müqavilədə göstərildiyindən qat-qat aşağı sürət çatır. Hər iki səbəb var burada. Bu iki məsələni iki dövlət qurumu araşdırmalıdır və nəticədə rəsmi açıqlama verməlidirlər ki, əslində nə baş verir".

Ekspertin sözlərinə görə, ölkəmizdə hələlik keyfiyyətli internet problemi öz həllini tapmayıb: "Xatırlayıram ki, bir neçə il öncə ölkə Prezidenti də öz çıxışlarında ölkədə keyfiyyətli internet məsələsinə diqqət çəkmişdi. Bəs keyfiyyətli internet nə deməkdir? Yəni dayanıqlı və yüksək sürətli. Hətta üçüncü də var - əlçatanlıq. Bəs əlçatanlıq necədir? Əlçatanlıq varsa dayanıqlılıq, sürət necədir? Bununla bağlı ölkəmizdə problem var. Düşünürəm ki, bu problem təkcə provayderlərin və yaxud hansısa qurumun problemi deyil, ölkə üzrə köklü problemdir. Vaxtilə bu köklü problemi həll etmək üçün 2014-cü ildə böyük bir dövlət proqramı hazırlanmışdı. Bunun üçün isə büdcədən yarım milyard manat ayrılmışdı. Yəni pullar Neft Fondundan veriləcəkdi. Deməli, problem var idi ki, bu cür proqram işlənilmişdi. Hətta xarici qurumlar da cəlb edilmişdi, onlar ölkəmizə gələrək, analizlər aparmışdılar və sairə. Lakin son anda hökumət bu proqrama pul ayırmaqdan imtina etdi və problem olduğu kimi qaldı. Bura böyük investisiya qoyulmalıdır. Özəl və dövlət provayderlərlə birlikdə bunu müzakirə etməlidirlər. Əgər bundan sonra da məsələni dövlət və ya özəl provayderlərin üzərinə buraxsaq, bu məsələnin həlli onillər çəkəcək".

**Vətəndaşların internet problemi bitmək bilmir**

Bu problem, xüsusilə pandemiya dövründə özünü büruzə verdi. Distant təhsil dövründə internetin olmamasına görə, hətta dərslərdən kənar qalan şagirdlər də oldu. Virusun təsirləri azalsa da, vətəndaşların internet problemi bitmək bilmir ki, bilmir.

İKT sahəsinin inkişaf etdirilməsi insanların rahatlığını təmin etməklə yanaşı bir sıra prioritet sahələrdə şəffaflığın yaradılmasında da mühüm rol oynayır. Təsadüfi deyil ki, bu gün ölkəmizdə elektron hökumətin xidmət dairələri getdikcə genişlənir. Məmur vətəndaş münasibətlərinin minimuma endirilməsi üçün müxtəlif tədbirlər görülür və bu istiqamətdə İKT-nin verdiyi imkanlardan geniş istifadə olunur. Bu səbəbdən də ölkəmizdə keyfiyyətli internetlə təminat məsələsi tez bir zamanda öz həllini tapmalıdır.

***Məhəmmədəli QƏRİBLİ***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***